

# Özünüməşğulluq proqramı sahibkarlığa geniş imkanlar yaradır



**Dövlətimiz tərəfindən aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi ilə yanaşı, onların aktiv əməyə cəlb edilməsinə, məşğulluğunun təmin olunmasına xüsusi diqqət yetirilir. Bu baxımdan Prezident İlham Əliyevin “Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında” 2016-cı il 7 aprel tarixli sərəncamı mühüm əhəmiyyət kəsb edir. Sərəncam dövlət məşğulluq siyasətində keyfiyyətcə yeni bir mərhələ açmaqla, özünəməşğulluq fəaliyyəti ilə işsiz və işaxtaran şəxslərin ailə bizneslərini qurmalarına, əmək potensiallarının reallaşdırılması yolu ilə gəlirlərini artırmalarına, həmçinin kiçik və orta sahibkarlığın inkişafına xidmət edir.**

Prezident İlham Əliyev ötən il özünüməşğulluq proqramının çox böyük sosial və iqtisadi faydası olduğunu vurğulayaraq demişdir: “Özünüməşğulluq proqramı geniş vüsət alır. Bu il ən azı yeddi min ailə bu proqramdan faydalanacaq. Bu gün onların arasında əlbəttə ki, ünvanlı sosial yardım alanlar da var. Beləliklə, o kateqoriyadan olan insanlar dövlətin dəstəyi ilə artıq özləri pul qazanacaqlar, öz ailə büdcələrini quracaqlar”.

Dövlət başçısının tapşırığı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilən özünüməşğulluq proqramı ölkəmizdə sosial müdafiə siyasətində passiv tədbirlərdən aktiv tədbirlərə keçidin təmin olunmasına imkan verib. Respublikamızın hər yerində özünüməşğulluq proqramı çərçivəsində aktivlərlə təmin edilmiş vətəndaşlar öz ailə təsərrüfatlarını və bizneslərini qurmağa nail olublar. Qeyd edək ki, 2018-ci ildə respublikada 7 min nəfərdən çox vətəndaş özünüməşğulluq proqramına cəlb edilib. Bu il isə daha çox vətəndaşın layihədən yararlanması nəzərdə tutulub. Proqrama cəlb edilən işsiz və işaxtaranlar sırasında əlilliyi olanlara, aztəminatlı, çoxuşaqlı, şəhid, məcburi köçkün, ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvlərinə, penitensiar müəssisələrdə cəza çəkməkdən azad olunanlara və digər həssas qruplara üstünlük verilir.

Proqram çərçivəsində nazirlik tərəfindən verilən aktivlər hesabına respublikamızın 76 şəhər və rayonu üzrə 1172 ailə (o cümlədən 60 nəfər əlil və 21 şəhid, 206 məcburi köçkün ailəsi) aktivlərlə təmin edilərək kiçik ailə təsərrüfatlarını yaradıblar. Həmin təsərrüfatların 84 faizi kənd təsərrüfatı (maldarlıq, quşçuluq, əkinçilik, arıçılıq, bağçılıq, istixana yaratma və s.), qalan hissəsi xidmət və istehsal sahələrini əhatə edir. Özünüməşğulluq proqramı çərçivəsində, həmçinin xalçaçılıq, misgərlik və s. üzrə də ailə təsərrüfatları yaradılıb.

Aztəminatlı ailələrin fərdi təsərrüfatlara sahib olmaları onların dövlət yardımından asılılığının aradan qalxmasına, öz zəhmətləri hesabına ailə gəlirlərini artırmalarına və sahibkarlığa çıxış imkanı qazanmalarına, ölkədə kiçik ailə biznesinin genişlənməsinə şərait yaradıb. Eyni zamanda, bu təsərrüfatlar ölkədə qeyri-neft sektorunun inkişafına əlavə dəstək olmaqla, həmin sektorda məhsul istehsalının artımını da stimullaşdırıb. Verilmiş aktivlərdən səmərəli şəkildə istifadə etməklə aztəminatlı ailələrin öz kiçik ailə təsərrüflarını gözlənilən səviyyədə, uğurla qurmaları və bu təsərrüfatları daim inkişaf etdirməyə, genişləndirməyə çalışmaları özünüməşğulluq proqramının icrası sahəsində müsbət təcrübənin formalaşdığını deməyə əsas yaradıb.



Bu ilin əvvəlindən “İşsizlikdən sığorta haqqında” Qanunun tətbiqinə başlanılması nəticəsində formalaşan İşsizlikdən Sığorta Fondu işsiz şəxslərin sosial müdafiəsi ilə yanaşı, aktiv məşğulluq tədbirlərinin, xüsusilə də özünüməşğulluq proqramının əhatə dairəsinin əhəmiyyətli şəkildə genişlənməsinə imkan yaradır.

Cari ildə özünüməşğulluq proqramına cəlb edilmiş işsiz və işaxtaran vətəndaşlar üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən təlimlər keçirilir. Təlimlər Bakı ilə yanaşı, Gəncə şəhərində, Yevlax, Qəbələ, Quba, Qusar, Siyəzən və Xaçmaz rayonlarında fəaliyyət göstərən “KOB Dostu” ofislərində təşkil edilib. İştirakçılara agentliyin fəaliyyəti, mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlər, dəstək tədbirləri, həmçinin “KOB Dostu” mexanizmi barədə məlumatlar verilib. Təlimlər zamanı özünüməşğulluq proqramı, biznes planların hazırlanması və hüquqi məsələlər də tədris olunub. Qeyd edək ki, özünüməşğulluq proqramına qoşulmaq istəyən şəxslər məşğulluq mərkəzləri ilə yanaşı, agentliyin “KOB Dostları”na da müraciət edə bilərlər. “KOB Dostları”na müraciət edən şəxslərə özünüməşğulluq proqramı barədə ətraflı məlumatlar verilir, onların proqrama qoşulmasına dəstək göstərilir.

Qeyd etmək yerinə düşər ki, ƏƏSMN və bp-British Councilin birgə layihəsi olan “Əlilliyi olan şəxslərin məşğulluq qabiliyyətlərinin artırılması proqramı”nın ikinci mərhələsi çərçivəsində iştirakçıların seçiminə start verilib. Proqramın ikinci mərhələsində iştirak üçün müraciət edən əlil şəxslərin ünsiyyət bacarıqları, hədəfləri, liderlik qabiliyyəti, motivasiyası, təhsil və təcrübələri qiymətləndirilir. Layihə çərçivəsində ilk təlim kursu sentyabrın əvvəlində başlanacaq və təlimdə 20 nəfər iştirak edəcək. Ümumilikdə isə poqramın ikinci mərhələsi üzrə təlimlərə Bakı şəhəri üzrə 100 nəfər əlilin cəlb olunması nəzərdə tutulub. Onlara ingilis dili, kompüter bacarıqları tədris olunacaq, psixoloji konsultasiya aparılacaq, xüsusi iş sahələri üzrə menecerlərin hazırlanması məqsədilə təlimlər keçiriləcək. Təlimləri uğurla başa çatdıran iştirakçılara beynəlxalq sertifikatlar təqdim ediləcək. Müvafiq sahələrdə fəaliyyət göstərən qərarverici tərəflərin və biznes müəssisələrinin də tərəfdaş qismində proqramda iştirakı təmin olunacaq.

Proqram əlil şəxslərin məşğulluq imkanlarının inkişaf etdirilməsinə və əmək bazarına çıxışının dəstəklənməsinə xidmət edir.

Hazırda özünüməşğulluq proqramı çərçivəsində respublikamızın rayon və şəhərlərində işsiz və işaxtaran şəxslərin kiçik ailə təsərrüfatlarının yaradılması prosesi davam edir. İyul-avqust aylarında daha 420 ailəyə mal və materiallar formasında aktvlər təqdim olunub və onlar verilmiş aktivlər hesabına öz təsərrüfatlarını yaradıblar. Təsərrüfatların böyük əksəriyyəti kənd təsərrüfatı sahələrini (heyvandarlıq, bağçılıq, arıçılıq, istixana və s.) əhatə edir. Bu il üzrə özünüməşğulluq proqramı çərçivəsində artıq 1500-dək kiçik ailə təsərrüfatı yaradılıb.



Ümumilikdə cari ilin ötən dövründə 4500-dək şəxs özünüməşğulluq proqramına cəlb edilib. Onlar əsasən əlilliyi olanlardan, aztəminatlı, çoxuşaqlı, şəhid, məcburi köçkün, ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvlərindən ibarətdir. 2019-cu il ərzində 10 minədək ailənin özünüməşğulluq proqramına cəlb edilməsi nəzərdə tutulur.

Onu da qeyd etmək lazımdır ki, özünüməşğulluq proqramının yerlərdə icrasına xüsusi nəzarət edilir. Bu günlərdə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bu məqsədlə Tovuz rayonunda olub. Nazir Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədovla rayonda özünüməşğulluq proqramı çərçivəsində yaradılmış ayrı-ayrı ailə təsərrüfatlarına baxış keçiriblər. Proqram iştirakçıları ilə görüşən S.Babayev Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən icra olunan özünüməşğulluq proqramının ildən-ilə genişləndirildiyini deyib. O, proqramın aztəminatlı ailələrin kiçik ailə biznesinə çıxışına, sahibkarlıq vərdişlərinə yiyələnmələrinə imkan yaratdığını vurğulayıb. Nazir qeyd edib ki, proqrama cəlb edilənlər əsasən əlilliyi olan şəxslərdən, aztəminatlı, çoxuşaqlı, şəhid, məcburi köçkün, ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvlərindən ibarətdir. S.Babayev proqram iştirakçılarının dövlətin yaratdığı bu imkandan düzgün və səmərəli fayadalanaraq, öz təsərrüfatların getdikcə genişləndirəcəklərinə əminliyini bildirib.

Xatırladaq ki, ötən il Tovuz rayonunda 178 ailə özünüməşğulluq proqramına cəlb edilib. Onlar verilmiş aktivlər hesabına öz kiçik ailə təsərrüfatlarını yaradıblar. Həmin təsərrüfatların böyük əksəriyyəti heyvandarlıq, qalan hissəsi isə xidmət sahələri üzrədir. Cari ilin ötən dövründə isə rayonda artıq 100-ə yaxın işsiz və işaxtaran şəxs proqrama cəlb olunub. Baxış zamanı işsiz və işaxtaran şəxslərin onlara verilmiş aktivlər hesabına yaratdıqları təsərrüfatları normal şəkildə idarə etdikləri və inkişaf etdirmək üçün səy göstərdikləri müşahidə edilib. Proqram iştirakçıları aztəminatlı ailələrin rifah səviyyəsinin yaxşılaşdırılması üçün aparılan ardıcıl işlərdən razı qaldıqlarını vurğulayıblar.

*Zərifə BƏŞİRQIZI,*
*“Xalq qəzeti”*